**UOT 316.7-053.2**
**KBT C55.325.2**

# Multikulturalizm və tolerantlıq uşaqların gözü ilə

**R.Y.Şıxlinskaya**
reyhanshikhli@gmail.com

**Xülasə:** *Biz insanlar çoxuq, amma bizim bir evimiz var – Yer planeti. Bu evdə rahat, yan-yana yaşamaq üçün bir-birimizi başa düşməli, şəxsiyyətinə hörmət etməliyik, yəni tolerant yaşamalıyıq. Təqdim edilmiş məqalə uşaqlarımızın multikulturalizm və tolerantlıq ruhunda böyüməsində kitabların rolunu araşdırır.*
**Açar sözlər:** *elmi-fantastika, multikulturalizm, tolerantlıq*
**Ключевые слова:** *научно фантастическая, мультикультурализм, толерантность*
**Key words:** *science-fiction, multiculturalism, tolerance*

Planetimizdə yeddi milyarddan çox insan yaşayır. Onlar çox müxtəlifdirlər. Milliyyəti, irqi, mədəniyyəti, dini, həyat tərzi, düşüncə tərzi... Hər kəsin fərdi olmaq hüququ var. İnsan necə varsa, elə qəbul edilərsə o zaman yaşamaq daha asan olar. Məqsədimiz insanlar arasında sevgi, dostluq və həmrəyliyin möhkəmlənməsinə təkan vermək, müxtəlif xalqların adət-ənənələrinə hörmət və onlar arasında mədəni körpünün yaradılmasıdır.

Qədim zamanlarda müxtəlif mədəniyyətlərin nümayəndələri bir-birindən uzaq məsafələrdə yaşayır və demək olar ki, görüşmürdülər. Bizim zəmanəmizdə isə elmi-texniki tərəqqi nəticəsində yaranmış müasir texnologiyalar insanları bir-birinə qarışdırdı və ünsiyyətin səviyyəsini maksimum qaldırdı. (Qeyd edim ki, XXI əsrdə də cəmiyyətdən təcrid olunmuş halda yaşayan toplumlar var, amma onlar planetimizin sosial-iqtisadi və siyasi həyatında iştirak etmirlər). Məhz bu zaman fərqli mədəniyyətlərin bir arada yaşaması məsələsi gündəmə gəldi.

**Multikulturalizm və tolerantlıq –** sosial terminlərdir.

**Multikulturalizm** – fərqli mədəniyyətlərin bir arada yaşamasını ehtiva edən ideologiyadır. Tarixi o qədər qədim deyil: XX əsrin 70-ci illərində, Amerikada yaranıb. Bu da təsadüfi deyil - bu ölkə mürəkkəb etnik xəritəyə malik olduğundan, birgə yaşamağın bir formulu tapılmalı idi.

Multikulturalizmə əks olan bir konsepsiya da var ki, mədəniyyətlərin birbirinə qarışması, inteqrasiya olunması, bir-birinin içində həll olaraq yeganə bir mədəniyyətin formalaşmasını nəzərdə tutur.

Qərbin iqtisadi cəhətdən inkişaf etmiş ölkələrinin çoxunda multikulturalizm konsepsiyası müdafiə olunur.

Bildiyimiz kimi, Azərbaycan çoxmillətli, polietnik bir ölkədir. Burada çoxlu millətlərin və xalqların nümayəndələri, etnik qruplar yaşayır. Onların tarixən Azərbaycandan başqa vətənləri olmamışdır. Buna görə də vahid Azərbaycan vətəndaşları hesab olunurlar və bütün hüquqlara malikdirlər.

Azərbaycan da multikulturalizmi dəstəkləyir. Ölkə başçısının sərəncamı ilə 2016-cı il Multikulturalizm İli elan olunmuşdur.

**Tolerantlıq -** başqa millətləri, fərqli həyat tərzini, fərqli düşüncəni qəbul etməkdir.

Məqsədimiz insanlar arasında sevgi, dostluq və həmrəyliyin möhkəmlənməsinə təkan vermək, müxtəlif xalqların adət-ənənələrinə hörmət və onlar arasında mədəni körpünün yaradılmasıdır. Bunun bünövrəsi isə əvvəldən qoyulmalıdır. İnsanın həyatının başlanğıcında - uşaqlıq çağında aşılanan dəyərlər daha dayanıqlı olur. Bu işdə uşaq ədəbiyyatının müstəsna rolu var.

Psixoloqlar hesab edirlər ki, erkən yaşlarından uşaqları tolerantlıq ənənələri əsasında tərbiyə etmək lazımdır. Sivilizasiyamızın gələcəyi bundan asılıdır. Cəmiyyətin ahəngdar yaşamasının əsas şərti budur. Nə üçün?

Maraqlıdır ki, millətlər arasında fərqlər çoxdur, amma söhbət uşaqlara gəlincə, mənzərə xeyli dərəcədə dəyişir. İş ondadır ki, dünyanın bütün uşaqları birbirinə bənzəyirlər, onların arzu və istəkləri, davranışları, hətta mimikaları, demək olar ki, eynidir. Gəlin, nağıl qəhrəmanlarına fikir verək: bizim Keçəl, türk xalqlarında Kəloğlan, altay nağıllarında Kalça bir-birinə bənzəmirmi? Azərbaycan nağıllarında *küpəgirən qarı*, rus nağıllarında *baba-yaqa*, yaponlarda o*şiroybaba... Zoluşka, Sinderella, Rodopis* elə *Göyçək Fatmanı* xatırlatmırmı?

Bu nağıl qəhrəmanlarının məğzi eynidir, amma onlar bir-birindən fərqlənirlər. Onların həyat tərzi, dəyərləri fərqlidir. Uşaqlarımız dünya ədəbiyyatından kitablar oxuduqca bunları başa düşür.

Milli kitab bazarında xarici ədəbiyyatdan tərcümələrin, xarici dildə olan kitabların sayı sürətlə artır. Xarici ədəbiyyatı oxuyarkən, biz nəinki yad dillə, həm də başqa, bizə yad olan mədəniyyətlə qarşılaşırıq və onu öz mədəni prizmamızda keçirib qiymətləndiririk. Problem bu zaman meydana gəlir, çünki ayrı-ayrı mədəniyyətlərin nümayəndələri dünyanı fərqli görüb dərk edirlər. Bəzən biz haqsızca başqalarına gülüb tənqid edirik; bizə onların hərəkəti geridəqalmış, sadəlövh, qəddar və ya anlaşılmaz gəlir.

Misal çəkmək istəyirəm. **“Yaşıl gözlü qız”**(Reyhan Yusifqızı. “Altun kitab” nəşrlər evi.- Bakı, 2010.- 128 səh.) adlı elmi-fantastika janrında yazılmış əsərdə məktəblilər fərqli sivilizasiyanın nümayəndəsi ilə tanış olurlar. Əsərinin qəhrəmanı - başqa planetdən, başqa sivilizasiyadan gəlmiş qızdır. Biləndə ki, onun babasının 140 yaşı var, uşaqlar ona gülürlər: “Bu babanı Ginnesin rekord-

lar kitabına salmaq lazımdır!" Eşidənəndə ki, onun planetində avtomobil 500 km/saat sürətlə gedir, yenə inanmır, lağ eləyirlər: "Bu, avtomobildi, yoxsa raketdi?" Bu qəribə qızın yalan danışa bilməməyi, sadəlövhlüyü, eyni zamanda qeyr-adi iti yaddaşı, telepatiya, telekinez qabiliyyəti bizim uşaqları təəccübləndirir. Amma onlar yadplanetli qızla yaxından tanış olandan sonra, onun mədəniyyəti, planeti haqda öyrənəndən sonra daha lağ eləmir, anlayışla qarşılayırlar. Məlum olur ki, onların sivilizasiyası daha irəlidədir.

**"Zamanın əsirləri"** (Reyhan Yusifqızı. "Altun kitab" nəşrlər evi.- Bakı, 2014.- 176 səh.) adlı ikinci elmi-fantastik povest isə uşaqlarımızı qədim sivilizasiya ilə – Daş dövrünün insanları ilə tanış edir. İbtidai insanların yaşam tərzi, düşüncəsi, görünüşü çox fərqli olsa da, uşaqlar onlarla öz aralarında ciddi oxşarlıqlar görürlər: onlar da oynamağı sevir, lianalardan tutub yellənirlər. Onlar da analarını və qəbilə üzvlərini sevir və dostluq etməyi bacarırlar. Bizə yad və uzaq olan bu kobud, lakin həssas qəlbli insanlar sonuncu vərəqi çevirəndə artıq bizə çox yaxın və doğma olurlar.

Qeyd edim ki, bu iki əsər nəinki Azərbaycan uşaq ədəbiyyatında, hətta Türkiyə uşaq ədəbiyyatında elmi-fantastika janrında yazılmış ilk əsərlərdir və bilgiverici olduqları üçün Ankarada yüksək qiymətləndirilmişlər.

**Övladlarımıza dünyanı bütün rəngarəngliyi ilə qəbul etməyi öyrətsək, onlar insanlarla asan ünsiyyət qurarlar və həyatları daha yaxşı keçər.**

Əgər bizim övladımız qaradərili adam görəndə ağzını ayırıb heyrətlə baxırsa, səbəbi özümüzdə axtaraq. Və ya gözdən əlil görəndə ona kömək etməkdən çəkinir, qorxursa – bu da bizim xətamızdır. Uşaq ona bənzəməyən, fərqli insanlar haqda bilməlidir. Xarici görünüşü, yaxud həyat tərzi fərqli olan məşhurlar, böyük dühalar haqqında ona danışmaq lazımdır.

- **Albert Eynşteyn** məktəbdə zəif oxuyurdu, onun arıq bədəni, böyük başı, fərqli görkəmi vardı. O, hamı kimi deyildi.
- Böyük ixtiraçı **Siolkovski** qulaqdan əlil idi və uşaqlıqdan özü ilə iri bir eşitmə aparatı daşıyırdı.

Əgər onların çevrələri bu insanları anlayışla qarşılamasa, onlar böyük işlər görəbilməzdilər.

Biz insanlar çoxuq, amma bizim bir evimiz var – Yer planeti. Bu evdə rahat, yan-yana yaşamaq üçün bir-birimizi başa düşməli, şəxsiyyətinə hörmət etməliyik, yəni tolerant yaşamalıyıq.

16 noyabr Beynəlxalq Tolerantlıq Günü elan olunub. Həmin gün bütün Rusiya məktəblərində tolerantlıq dərsi keçildi. Hesab edirəm ki, gözəl təşəbbüsdür.

"Hər birimiz yeganəyik. Biz bir yerdə dünyanı xilas edə bilərik. Xeyir və Şər ayrılmazdır. Sevgi və Nifrət, həmçinin. Onları tolerantlıq birləşdirir" (Məktəblinin tolerantlıq haqda inşasından).

Norveçdə din həftələri keçirilir: xristian dini həftəsi, islam dini həftəsi. İslam

dini həftəsində birinci yeri tutan azərbaycanlı uşaq "Necə oldu ki, birinci yeri tutdun?" sualına belə cavab verdi: "Mən dinimiz haqda bildiklərimi yazdım, sonra isə məscid şəkli çəkdim – minarə də cızdım. Müəlliməm dedi ki, minarənin nə üçün olduğunu yoldaşlarına izah et. İzah etdim ki, ora qalxıb azan verirlər, azan - insanları dua eləməyə çağırır". Əsl multikulturalizm, məncə, budur.

Azərbaycanda da multikulturalizm ili çərçivəsində layihələr həyata keçirilib. Mən bu günlərdə Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi və F.Köçərli adına Respublika Uşaq Kitabxanasının təşkilatçılığı ilə həyata keçirilmiş çox maraqlı bir layihədə iştirak etmişəm: "Uşaq kitab karvanı şimal bölgəsində". Məqsədimiz - milliyyətindən asılı olmayaraq bütün insanları birləşdirən dəyərləri görməyə kömək etməkdi – məqsəd balalarımızı tolerant böyütməkdi. Layihə çərçivəsində altı rayonun mərkəzi kitabxanasına yüzlərlə kitab hədiyyə olundu. Tədbirdə iştirak edən uşaq yazıçılarının və kitabxana əməkdaşlarının uşaqlarla söhbətləri, balalarımızın intellektual səviyyəsinin artırılmasına yönəlmiş viktorinalar olduqca təqdirəlayiq idi.

**Ədəbiyyat**

1. Multikulturalizm Azərbaycanın həyat tərzidir: metodik tövsiyələr /tərt. ed.: M.Hacıyeva, N.Alışova; red. və burax. məsul K.Tahirov; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası. Bakı, 2016, 59s.
2. https://az.wikipedia.org/wiki/Multikulturalizm
3. http://azertag.az/ru/xeber/Prezident_Ilham_Aliev_Multikulturalizm___obraz_zhizni_v_Azerbaidzhane-918990

**Мультикультурализм и толерантность с точки зрения детей**

Р.Ю.Шихлинская

**РЕЗЮМЕ**

*Нас, людей много на Земле, но у нас есть один дом - Земля. Чтобы спокойно, бок о бок жить на этой Земле, мы должны понять друг друга, уважать личность, то есть, жить толерантно. Представленная статья анализирует роль детских книг в воспитании наших детей в духе мультикультурализмаи толерантности.*

**Multiculturalism and tolerance in terms of children**

R.Y.Shikhlinskaya

**SUMMARY**

*There are a lot of people in the world, but we have one house - the Earth. We need to understand each other, respect the personality, that is, to live tolerantly. The presented paper analyzes the role of children's books in the education of our children in the spirit of multiculturalism and tolerance.*